# "Şəhid qardaşlar" kitabı

**"Biz gəldi-gedərik, təki Vətən yaşasın!" amalının qəlbində hökm saldığı, qısa və mənalı ömründə hər an vətəni düşünən çox dəyərli və cəsur, tanıdıqca daha çox tanımaq istədiyin şəxslərdən biri nur üzlü bir ananın vətənpərvər oğlu olaraq dünyaya göz açan, lakin doğumu ilə bir ananın olsa da, şəhadəti ilə bütün anaların oğlu olan, şəhid gizir Məmmədov Çingiz İlham oğludur.**

## XV yazı

*(Əvvəli ötən saylarımızda)*

### Şəhid Məmmədov Çingiz İlham oğlu haqqında unudulmaz xatirələrim

Çingizlə eyni hərbi hissənin qonşu bölmələrində xidmət etməyimizə və tabeçilik münasibətlərinin olmamasına baxmayaraq, onun necə bir vətənpərvər, vətən üçün sözdə yox, əməldə can verməyə hazır olduğu hərbi xidməti zamanı bəlli idi.

Ulu öndərimiz Heydər Əliyevin "Bütün peşələr gözəldir, ən gözəl peşə isə vətənə xidmət etməkdir" kəlamını hər zaman dilində şüar edən gizir ömrünün ən gözəl çağlarını vətənimizin azadlığı və torpaqlarımızın bütövlüyü uğrunda mübarizəyə həsr etmiş, ancaq bununla kifayətlənməmiş, hər zaman tabeliyində olan şəxsi heyətin də vətəni sevən döyüşçülər kimi yetişməsi üçün əlindən gələni etmişdir.

Çingiz deyirdi: "Bir millətin sahib olduğu ən önəmli şey vətənidir".

Çingiz hər şeydən, hətta canından da üstün bildiyi vətəni üçün şəhid olaraq adını ən uca zirvəyə - şəhidlik məqamına yüksəltdi. Bu müqəddəs məqam hər kəsə nəsib olmur, hətta "Qurani- Kərim"də də şəhidləri ölü adlandırmağa icazə verilmir. "Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər".

Mən müharibənin başlamasına az günlər qalmış onun ürəyinin necə vətən üçün döyündüyünün, müharibə zamanı isə sözündə yox, əməlində vətən üçün igidliyinin bir daha şahidi oldum. Fəxr edirəm ki, onunla birlikdə bu şərəfli yolla addımlayaraq, Vətən müharibəsində, Murovdağ döyüşlərində yurdumuzun hər qarışı üçün Azərbaycanın mərd, şücaətli, igid oğlanları ilə birgə mübarizə aparmışıq. Onun vətən eşqi döyüşçülər üçün bir məktəb, sevgi və hörmətlə anılacaq bir yoldur, hər bir vətəndaş üçün qəhrəmanlıq nümunəsidir. Vətənpərvərlik ruhunda tərbiyə alan, vətənsevərliyin onu böyüdən valideyinlərindən övladlarına keçdiyi hər iki qardaşın vətən uğrunda canlarını fəda etməsi, nəinki bizim ölkəmiz, hətta bütün dünya üçün ibrətamiz və unudulmaz bir məktəbdir.

Gizir Məmmədov Çingiz İlham oğlunun canı "vətən, yurd, torpaq, bayraq" sözləri ilə yoğrulmuşdur. Nə qədər ki üçrəngli bayrağımız şəhidlərimizin sayəsində ucalarda dalğalanmaqda davam edir, bu o deməkdir ki, biz xalq olaraq öz varlığımızı, vətənimizi qoruya bilmişik.

Biz hər zaman şəhidlərimizin əziz xatirəsini uca tutmalıyıq, çünki onlar ölümləri (dinimizin peyğəmbəri Məhəmməd s.a.v şəhidlər haqda demişdir: "Şəhid cənnətdədir, Allah qatında xeyirli bir mərtəbədə ikən, heç bir qul bir daha dünyaya qayıtmaq istəməz. Ancaq şəhidlər bundan müstəsnadır. Çünki onlar şəhid olmanın necə üstün mərtəbə olduğunu bildikləri üçün yenidən şəhidliyə can atarlar") ilə bu torpaqları bizə vətən etdilər. Bu torpaqlar cəmi şəhidlərimiz sayəsində vətən olub. Hər zaman biz əlimizdən gələn ən yaxşı işləri görsək, hər addımımızda, hər sözümüzdə belə şəhidlərimizi ansaq, onların ruhları şad olar. Şəhidlər biz unutduğumuz zaman ölürlər.

Gizir Məmmədov Çingiz İlham oğlu kimi vətəni canından çox sevən əziz şəhidləri sevmək, onları hər zaman anmaq bizim ən öndə gələn vətəndaşlıq borcumuzdur. Bir daha əziz şəhidimizə uca Yaradandan rəhmət, ailəsinə və yaxınlarına səbr arzulayıram.

Unutmayaq, şəhidlər vətənimizin istiqlalı, torpaqlarımızın azadlığı və bütövlüyü, dövlətimizin daimi, müstəqilliyimizin əbədi, üçrəngli bayrağımızın sonsuza qədər üfiqlərdə dalğalanması üçün canlarını fəda ediblər!

**Hacı Muradov, Vətən müharibəsi veteranı, II qrup müharibə əlili, istefada olan baş leytenant**

Mən də Cavid və Çingiz kimi Şəmkir rayonunun Yeniabad kəndində doğulmuşam. İndi də həmin kənddə yaşayıram.

Cingizlə bir sinifdə oxumuşam. Qonşu, yaxşı dost olmuşuq.

Çingiz cox mərifətli, böyüyün-kiçiyin yerini bilən olub. Hamıya qayğı ilə yanaşıb. O, şən olmasıyla özünü dostlara, doğmalara sevdirə bilmişdi. Hamı onun xətrini istəyirdi.

Cavid Çingizdən fərqli olaraq, çox sakit, heç kimlə işi olmayan bir insan idi. Cavid də, Çingiz də çox kasıbçılıqla böyüyüblər. Əziyyətin nə olduğunu bilirdilər. Zəhmətkeş uşaqlar idilər. Bir yerdə böyümüşük, dost olmuşuq. Uşaqlığımız bir yerdə keçib.

Çingiz məktəbdə oxuyanda həmişə hərbçi olacağını deyirdi.

Əsgərlikdən gələndən sonra sənədlərini "Gizir hazırlığı kursu"na verdi. Qəbul olundu. Çingizin sevinci yerə-göyə sığmırdı. Uşaqlıqdan arzuladığı peşəyə sahib olmuşdu.

Kursu bitirdikdən sonra göndərişlə Naxçıvanda 5 il gizir kimi qulluq etdi. Hər gələndə Naxçıvandan, hərbidə yaşadıqlarından, ev, dostlar üçün darıxdığından danışırdı. Hərdən də hərbi qulluqdakı nailiyyətlərini sevinclə bölüşürdü. Artıq püxtələşmişdi. Texnikanın sirlərinə yiyələnmişdi. Ordudakı dostlarından, onların mehribanlığından söhbət açırdı. Əsgərlərinə olan sevgi və qayğısını



sevə-sevə bölüşürdü. Vətənə xidmət onunçün hər şey idi. Ən böyük arzusu torpaqlarımızı işğaldan azad etmək idi. Özü də o zəfərin önündə olaraq. Qələbənin olacağına çox əminliklə danışırdı.

Naxçıvandan gəldikdən sonra Tovuzda xidmətini davam etdirirdi. Ürəyindəki vətən, torpaq sevgisi onu həmlə taborunda xidmətə gətirmişdi. Seyfəlidə həmlə taboruna təlimlərdə iştirak edirdi. Xüsusi təlimlər keçirdilər. Artıq döyüşə tam hazır idi. Əsgərlərinin hazırlığından razılıq edirdi.

Son gəlişində müharibəyə tam hazır olmalarından və mütləq qalib gələcəyimizdən çox əminliklə danışdı. Bu bizi də sevindirirdi. Biz də inanırdıq ki, bu təkcə hərbi qulluqçuların deyil, bizim hamımızın sayəsində mümkündür. Çünki hamı Qələbəyə susamışdı. Qələbənin sevincini dadmaq, onu yaşamaq istəyirdik.

Çingizin hər gəlişi, hər söhbəti bizə ruh verirdi. Nə qədər qanlı-qadalı olsa da, hamı müharibə istəyirdi. Mən də müharibə başlasa, mütləq könüllü olaraq müharibəyə gedəcəyimi bildirmişdim.

Mən də 2020-ci il sentyabrın 28-də könüllü olaraq müharibəyə getdim. Müharibə başlayandan iki gün sonra, sentyabrın 29-da Çingizlə görüşdüm. Çingiz dedi ki, qardaş, özündən muğayat ol, mən Murova gedirəm. Sağollaşıb ayrıldıq. Ondan sonra Çingizlə əlaqəm kəsildi. Sonra eşitdim ki, Çingizdən heç bir xəbər yoxdur. Evdəkilər də narahatdır.

Döyüşdə olduğumdan və yaxın dost olduğumuz üçün Çingizi məndən də soruşurdular ki, Çingizdən nə xəbər bilirsən? Mənimsə Çingizdən xəbərim yox idi. Ona görə də bir neçə gündən sonra axtarıb Çingizin döyüş dostlarını tapdım. Dedilər ki, Çingiz qardaşı Cavidin şəhid olduğunu bildi, bir az fikrə getdi və dedi ki, mən irəli gedirəm. Geri qayıtmaq söhbəti etməyin.

Çingiz düşməndən təkcə qardaşı Cavidin yox, bütün şəhidlərin intiqamını almağa söz verib. Ona görə də ən ağır döyüşlərdə qabaqda olub.

Mən Çingizi yaxşı tanıdığımdan bilirəm ki, o düşməndən qorxub çəkinən deyil. Ən ağır döyüşlərə girər və təhlükə hiss etsə, ora kimsəni buraxmaz, təkcə gedər. Çingiz elə qəhrəman, mərd, cəsur oğul idi.

Döyüş yoldaşları Çingizin cəsurluğundan, qəhrəmanlığından danışdıqca dostum üçün çox sevinirdim. Sonda təəssüf dolu notlardan hiss etdim ki, Çingizlə görüşə bilməyəcəyəm. Çingizin oktyabrın 2-də Murov dağında itkin düşdüyünü bildirdilər. Bunu eşidəndə gözüm önünə uşaqlığımız, məktəb illəri, xoş günlər düşdü. Bir də İlham əmiylə, Faya xala.

Mən də Cavidlə Çingizin və bütün şəhidlərimizin qisasını alacağıma söz verdim.

Müharibənin sonuna yaxın Şuşa-Xankəndi döyüşündə yaralandım. Məni Bakıya hospitala gətirdilər. Özümə gələndə Çingizin anası Faya xalaya zəng elədim ki, Çingizdən nə xəbər var? Faya xala ağlaya-ağlaya mənə dedi ki, Kamil, sən Çingizlə qardaş kimi olmusan. Bəlkə, nəsə bilirsən, məndən gizlətmə. Çingizin itkin düşdüyünü bilsəm də, anasına deyə bilmədim. Çingiz həmişə deyirdi ki, mən vətənim, millətim üçün şəhid olacağam. Elə də oldu.

Cavid də Çingiz kimi hərbçi olmaq istəyirdi. Ona görə də "Gizir hazırlığı kursu"na daxil oldu. Əvvəlcə Tovuzda, sonra isə Goranboyda xidmət elədi. Hər zaman döyüşə can atırdı. Müharibə başlamamışdan bir az qabaq xidmətini ön cəbhəyə dəyişdi. Düşmənlə üzbəüz olmaq istəyirdi. Sanki müharibənin başlayacağını bilirdi. Yəqin, ürəyinə dammışdı. Vətənini, torpağını çox sevən qorxmaz döyüşçü, gizir Cavid Məmmədov elə müharibənin ilk günlərində döyüşçü dostları ilə birlikdə ermənilərin bir neçə postunu alaraq, bəzi kəndləri işğaldan azad etdikdən sonra qızğın döyüşlərin birində qəhrəmancasına şəhid oldu.

Hər dəfə kənd qəbiristanlığına gedəndə ilk ziyarət etdiyim Cavidlə Çingiz, mənim şəhid qardaşlarım olur. Hospitaldan evə buraxılanda da onları ziyarət etməyi özümə borc bildim. Cavidlə Çingiz mənim təkcə uşaqlıq dostlarım deyil, həm də döyüş dostlarımdı. Fəxrimdi. Qürur yerimdi.

Allah kəndimizin şəhidləri olan Cavid və Çingizə, eləcə də bütün şəhidlərimizə rəhmət eləsin! Yaralı qazilərimizə şəfa versin!

Kamil Məmmədov, "Cəsur döyüşçü" medallı qazi

(ardı var)

**Rəfail TAĞIZADƏ**